**Bakı Xəbər**. - 2024. - 2-4 noyabr. - № 200. - S. 3.

# 100 dövlət başçısının sammiti COP-ların tarixində şedevr fakt ola bilər...

**Günel Cəlilova**

**Aydın Mirzəzadə: "Konfrans çərçivəsində dünya liderləri ikitərəfli münasibətlər, regional problemlər üzrə də müzakirələr apara biləcək"**

Noyabrın 11-22-də Azərbaycanın paytaxtı Bakı möhtəşəm bir tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyi edəcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub.

Azərbaycan indiyədək bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib və onların öhdəsindən layiqincə gəlib. Lakin Prezident İlham Əliyevin dediyi kimi, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Bakı iki həftə ərzində dünyanın mərkəzi olacaq.

Məlumat üçün bildirək ki, oktyabrın 31-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin 8-ci iclası olub. Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev bildirib ki, COP29 Liderlər Sammitində 100-dən artıq dövlət və hökumət başçısının, vitse-prezidentlərin iştirakının gözlənilir.

100-dən artıq dövlət başçısı, vitse-prezident və hökumət başçılarının COP29-da iştirakı bu tədbirin qarşıya qoyduğu vəzifələrin fəth olunması baxımından nə vəd edir?

*"İqlim dəyişikliyi məsələsi artıq ayrı-ayrı beynəlxalq təşkilatların, ekoloji fəalların deyil, milli hökumətlərin də əsas vəzifəsinə çevrilib"*

Millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə şərhində bildirdi ki, COP konfransları son illər dünyada böyük nüfuz qazanmaqdadır. Iqlim dəyişikliyi məsələsi artıq ayrı-ayrı beynəlxalq təşkilatların, ekoloji fəalların deyil, artıq milli hökumətlərin də əsas vəzifəsinə çevrilib: "Bu baxımdan hər il dünyanın müxtəlif ölkələrində keçirilən iqlim dəyişikliyinə qarşı mübarizə konfranslarına birqayda olaraq birinci şəxslər iştirak edir. Bakıda keçiriləcək COP29 konfransına 100-dən çox dövlət başçısı, rəsmilər qatılacaq. Konfransın mövzusu üzrə konktret müzakirələr keçiriləcək. Eyni zamanda, konfrans çərçivəsində dünya liderləri ikitərəfli münasibətlər, regional problemlər üzrə də müzakirələr apara biləcək. 100-dən çox ölkə rəhbərinin Azərbaycandakı tədbirdə iştirakı onların ölkəmizi daha yaxından tanıması, mədəniyyət və tariximizlə daha dərin biliklər əldə etməsinə səbəb olacaq. Həmçinin, Azərbaycanla ikitərəfli əlaqələrin qurulmasına imkan veriləcək".

Millət vəkili hesab edir ki, COP29-un dünya üçün vacib bir məsələnin müzakirəsi ilə yanaşı, Azərbaycanın dünyada tanıldılmasında böyük rolu olacaq. Tədbirlə bağlı ölkəmizə gələn qonaqlar Azərbaycan mədəniyyəti, tarixi, paytaxt Bakıda görülən quruculuq işləri ilə tanış olacaq. Bununla yanaşı, Azərbaycanı təbiətin qorunması istiqamətində müsbət təcrübəsi ilə də tanış olacaqlar.